**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 25 dekabr tarixli 140 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf fondu haqqında Əsasnamə və fondun vəsaitinin xərclənməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı**
**№ 139**

**Bakı şəhəri, 10 aprel 2017-ci il**

“Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 25 fevral tarixli 388 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 yanvar tarixli 1207 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 25 dekabr tarixli 140 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 549; 2000, № 6, maddə 473; 2005, № 8, maddə 782; 2011, № 4, maddə 369; 2013, № 12, maddə 1637; 2016, № 5, maddə 954; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 27 mart tarixli 100 nömrəli qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf fondu haqqında Əsasnamə və fondun vəsaitinin xərclənməsi Qaydaları”nın 3.1-ci bəndinin on üçüncü abzasında “50” rəqəmi “60” rəqəmi ilə əvəz edilsin.

**2.** Bu qərar 2017-ci il fevralın 1-dən qüvvəyə minir.

**Artur RASİ-ZADƏ**
**Azərbaycan Respublikasının**
**Baş naziri**